# Hacı Azadə Taleh ABBASQIZI



Amansız ölüm qələm yoldaşımız Hacı Azadə Taleh Abbasqızını aramızdan apardı.

Hacı Azadə Abbas qızı Hüseynova 1964-cü il fevralın 26-da Gəncədə anadan olub. 1 saylı şəhər orta məktəbini bitirdikdən sonra Azərbaycan Tibb Universitetinin müalicə-profilaktika fakültəsinə daxil olub.1988-1989-cu illərdə Hövzə-klinik xəstəxanasında interna keçib.

1992-ci ildə 13 saylı Bakı şəhər xəstəxanasının poliklinikasında sahə həkimi kimi işə başlamış, eyni zamanda kardiologiya üzrə tam kurs keçmişdir. 1992-1994-cü illərdə Ə.Əliyev adına II terapiya kafedrasında klinik-ordinaturanı bitirdikdən sonra baş laborant işləyib. 2002-2005-ci illərdə kliniki kardiologiya, 2005-ci ildə allerqologiyanın aktual məsələləri üzrə ixtisaslaşdırma və təkmilləşdirmə kursu keçib. Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun terapiya kafedrasının həkim-assistenti olub.

Ədəbi yaradıcılığa erkən başlayan Azadə xanım ilk qələm təcrübələrini 1984-1988-ci illərdə "Tibb kadrları uğrunda" qəzetində çap etdirib. 1984-1988-ci illərdə xüsusi jurnalistika kursu keçərək jurnalist ixtisasına yiyələnib. 1996-cı ildən "Borçalı" qəzetinin və eyni adlı jurnalın baş redaktoru,

2002-ci ildən "Kardiologiya", "Hakimiyyət və zaman" jurnallarının təsisçisi və naşiri, 2003-cü ildən "Qafqaz Media" İctimai Birliyinin sədri, "Qafqaz Press" qəzetinin təsisçisi və baş redaktoru, 2018-ci ildən Xalq TV və QafqazMedia TV-nin direktoru idi.

"Nə yaxşı ki, dəniz varmış", "Borçalı lətifələri", "Taleyim mənim, Talehim mənim", "Dədə Qorqudda Borçalı izləri", "Tənha ağac", "Sənsiz", "Hikmət xəzinəsindən incilər", "Həqiqətin təşnəsiyəm", "Bu sevgi qəlbimə haqdan gəlibdi", "Qızılgül" və s. kitabların müəllifidir. Rus və gürcü dillərində də kitabları nəşr olunub. Yaradıcılığı bir çox ədəbi mükafatla dəyərləndirilib. Fəal ictimaiyyətçi idi.

İstedadlı qələm yoldaşımız, səmimi, təvazökar insan Hacı Azadə Taleh Abbasqızının işıqlı xatirəsi qəlbimizdə yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Yazıçılar Birliyi**